Xalq qəzeti 13 noyabr 2022-ci il, bazar

# Həsən bəy Zərdabinin oğlu Səfvət bəyin məzarı tapıldı

**“Tapdım. Bir neçə ildir ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin oğlu Səfvət bəyin axtarışında olduğum məzarını tapdım”. Bu sevincli, eyni zamanda, kövrəldici xəbəri Həsən bəy Zərdabi irsinin, Zərdabilər ailəsinin fədakar tədqiqatçısı, “Şərq” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Akif Aşırlı bugünlərdə qardaş Türkiyədə istiqlal şairi Əhməd Cavadın 130 illik yubiley şənliklərində iştirak etdiyi zaman ilk olaraq sosial şəbəkədə paylaşıb.**

Ölkə mediasında ildırım sürəti ilə yayılan xəbərin davamında Akif Aşırlı bildirib: “Səfvət bəy Məlik Zərdabi Həsən bəyin 3-cü övladıdır, kiçik qızı Qəribsoltan xanımdan öncə doğulub. 1917-ci ilə qədər Riqa Politexnik Universitetində oxuyub, sonra Almaniyada təhsili alıb, yüksək ixtisaslı mühəndis olub. 30-cu illərdən Türkiyədə Azərbaycan həsrətilə yaşayıb”.

Bu xəbərdən dərhal sonra illər boyu böyük Zərdabinin, demək olar ki, haqqında heç nə bilmədiyimiz oğlunun kimliyini az-çox aşkar etmiş və nəhayət, məzarını min bir əziyyətlə tapmış Akif müəllimlə zəngləşib görüşdük. Sevincimizdən təsirlənib




qucaqlaşdıq, göz yaşımızı saxlaya bilmədik... Sonra söhbətə bu sualla başladıq:

**– Akif müəllim, Həsən bəy Zərdabinin kiçik oğlu, illər boyu itkin sayılmış Səfvət bəyin Ankarada yaşadığını bir neçə il əvvəl necə aşkar etmişdiniz?**

– Atalar yaxşı deyiblər ki, axtaran tapar. Səfvət bəyin Fransadan sonra Türkiyədə yaşaması barədə səhih olmayan məlumat var idi. Ona görə bu ölkəyə hər səfərimdə bacardığım qədər ondan bir soraq, nişanə axtarırdım. Lakin heç nə alınmırdı. Sən demə, bunun üçün xoş bir təsadüf lazım imiş. Bir dəfə Ankarada olarkən küçədə satılan köhnə kitablar arasında ötən əsrin 50-ci illərində qurulmuş Türkiyə Memarlar Odası barədə köhnə bir kitabça əlimə keçdi. Vərəqləyəndə bu cəmiyyətin qurucuları sırasında Səfvət Məlikov Zərdabinin də adına rast gəldim.

Bu qurumun sorağı ilə onun indiki qərargahını tapdım. Məlum oldu ki, həmin adam uzun illər haqında heç nə bilmədiyimiz Həsən bəyin kiçik oğlu Səfvət bəydir. Öyrəndik ki, o, Ankaranın ən gözəl binalarının memarı olub, ölkənin görkəmli tikinti mühəndislərindən sayılıb. Səfvət bəy Türkiyədə Azərbaycan siyasi mühacirətinin liderlərindən olub, siyasi publisist və naşir kimi də tanınıb. Memar olmasına baxmayaraq, atasının yaradıcılığını davam etdirib.

Səfvət Zərdabi 1952-ci ildə Ankarada Azərbaycan Milliyyətçilər Dərnəyinin qurucularından olub, Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mücadilə aparıb. Azərbaycan mühacirət mətbuatının ən yaxşı nümunələrindən olan “Mücahid” dərgisinin naşiri, baş yazarı, “Türk izi” dərgisinin əsas yazarlarından olub, ömrünün sonunadək qələmi yerə qoymayıb.

Bir neçə il öncə Səfvət bəylə bağlı geniş araşdırmamı “Həsən bəy Zərdabinin varisi” kitabımda umumiləşdirə bildim. Ölüm tarixini dəqiqləşdirə bilsəm də, harda dəfn olunduğu tapa bilmirdm. Nəhayət, məzarın yerini Ankarya budəfəki 4 günlük səfərim zamanı inadlı axtarışdan sonra tapdım. Səfvət bəyin qəbri Ankaranın “Karşıyaka” məzarlığındadır, həyat yoldaşı Nəzihə xanımın məzarı ilə qoşadır”.

Səfvət bəy Məlikovun məzarının harada olması barədə isə buvaxtadək heç kəsdən heç nə öyrənə bilməmişdim. Əgər o Ankarada yaşamışdısa, Memarlar Odasının dərgisində verilmiş nekroloqda da burada öldüyü təqdiqlənirdisə, deməli, axtardığım məzar da bu şəhərdə olmalı idi. Bu dəfə bir neçə məzarlıqda oldum. Onların rəhbərliyinin köməyi ilə burada dəfn olunanların qalın kitablar halındakı siyahıları nəzərdən keçirdim. Nəhayət, “Qarşıyaxa” məzarlığının siyahısında “Nəfisə Məlik Zərdabi” adına rast gəldim Bu Səfvət bəyin həyat yoldaşının adı idi. Özünün adı isə kitaba “Sofvet” şəklində düşdüyündən diqqətimi cəlb edə bilməmişdi.

Nəhəng məzarlığı onun nümayəndəsi ilə birlikdə qarış-qarış gəzdik. Birdən yolun kənarında arxasına “Nəfisə Məlik Zərdabi” yazılmış baş daşını gördük. Qoşa qəbirdən biri onun, o biri isə Səfvət bəyin imiş. Təəssüf ki, Səfvət bəyin baş daşı qırılmış, sinə daşları parcalammış vəziyyətdə idi. Qəbir aşağıya doğru cöküb. Üzərində “Azərbaycan əşrəflərindən olan Həsən bəy və Hənifə xanımın oğlu Səfvət Məlik Zərdabi. Ruhuna fatihə.1898–1976” sözləri yazılıb. Məzarın illərlə baxımsız qaldığı aydın görünürdü.

Nə yaxşı ki, məzarlıq məmurları, ətrafda calışan ustalar köməyimə catdı. Rasim Yardımsevər adlı türk qardaşımızla birgə baş daşını bərpa edə bildik, kicik bir təmir işi apardıq. Səfvət bəyin adını qara boya ilə yenidən yazdıq. Amma bununla yekunlaşdırmaq ol-




maz. Böyük Həsən bəyin çox çətinliklə kimliyini və aqibətini aşkar etdiyimiz oğlunu unutmağa mənəvi haqqımız catmır. Zərdabinin qəzetçilik yolunu davam etdirmiş, Azərbaycanın istiqlalının bərpası həsrəti ilə yaşamış Səfvət bəyin xidməti və xatirəsi layiq olduğu səviyyədə dəyərləndirilməlidir. Bununla biz jurnalistlərin mənəvi atası Həsən bəy Zərdabinin də ruhu şad olar.

**– Akif müəllim, sizin buvaxtadək aşkar etdikləriniz zamanında milli**



**ziyalılarımızın mənəvi atası olmuş Həsən bəy Zərdabinin və ziyalı qadınlarımızın mənəvi anası sayılmış Hənifə xanım Məlikova-Abayevanın kiçik oğulları sarıdan nigaran ruhlarını artıq xeyli şad edib. Sizin əldə etdiyiniz bu yeniliklər isə Zərdabilər irsinə və zərdabişünaslığa qiymətli töhfədir.**

*Tahir AYDINOĞLU,*
*“Xalq qəzeti”*

**P.S. İnanırıq ki, Ankaradakı səfirliyimiz və bu ölkədəki iş adamı kimi çalışan soydaşlarımız indiki sevincimizə nisgil qatan Səfvət bəyin dağılmış məzarının bərpa edilməsi üçün lazımi işlər görəcəklər.**